1 - 3_Layout 1 15.03.2021 15:15 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 5 (595)

16 mart 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# PREZİDENT, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ YENİ İNŞA OLUNAN "N" SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də - Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.***





**AZƏRTAC** xəbər verir ki, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Nazir Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, hərbi hissədə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin yaxşılaşdırılması tədbirləri çərçivəsində qərargah və əsgər kazarması, yeməkxana, tibb, qarovul, texniki nəzarət, buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri avadanlıq və inventarla təchiz edilib. Mövcud binalar isə əsaslı təmir olunub. Hərbi hissədə mərkəzləşdirilmiş havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb.





Prezident, Ali Baş Komandan hərbi hissədə yeni inşa edilən qərargah, əsgər yataqxanası, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb.

Qeyd edək ki, əsgər və zabitlərin xidmət şəraitinin yaxşılaşdırılması onların döyüş qabiliyyətini artırmaqla bərabər, istənilən vəzifənin icrasına birbaşa təsir göstərən amillərdəndir.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və kütləvi iğtişaşların dağıdılmasında istifadə olunan texnikaya və komendant postlarına baxdı. Bu postlar işğaldan azad olunmuş ərazilərdə xidmət aparmaq üçün hazırlanıb.



Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları vahid komandanlıq altında Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.



Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına, xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların mükafatlandırılmasına xüsusi diqqət yetirir. Azərbaycan Prezidentinin 2021-ci il 12 mart tarixli Sərəncamına əsasən, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının iki hərbi qulluqçu "Vətən uğrunda", üç nəfər "İgidliyə görə", 7 nəfər isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunması bunun əyani göstəricisidir.

Xatırladaq ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsinin, ictimai təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.

**Hərbi hissə ilə tanışlıqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bütün şəxsi heyətini təbrik etdi.**

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Abbasov Vurğun Arif oğlu – polkovnik
Cəbrayılov Rövşən Ata oğlu – polkovnik

**"İgidliyə görə" medalı ilə**

Məmmədov İlqar Aydın oğlu – general-mayor
İsmayılov Alim Şükür oğlu – polkovnik
Məmmədov Sahib Kamaləddin oğlu – polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Babayev Eldar Muxtar oğlu – polkovnik-leytenant

İsmayılov Eyvaz Əvəz oğlu – polkovnik-leytenant

Məhərrəmov Zaur Barat oğlu – polkovnik-leytenant

Məmmədov Vüqar Təhməz oğlu – polkovnik-leytenant

Ələkbərov Rəşad Rafiq oğlu – mayor

Tağıyev Arzuman Nadir oğlu – kapitan

Qurbanov Elçin Yaşar oğlu – baş leytenant.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 mart 2021-ci il.

# 12 MART DAXİLİ QOŞUNLAR GÜNÜDÜR!

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ ŞƏXSİ HEYƏTİNƏ



Yarandığı gündən şərəfli bir xidmət yolu keçən, respublikanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət və qəhrəmanlıqlar göstərmiş Daxili Qoşunlar Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq dövlətçiliyin sütunlarından birinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əvəzsiz diqqəti və qayğısı sayəsində bu gün davamlı inkişafda olan qoşunların döyüş hazırlığı, təchizatı, şəxsi heyətin xidmət şəraiti, sosial müdafiəsi yüksək səviyyədədir. Öz andına sadiq olan hərbçilərimizin respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, bütövlükdə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında professionallığı və qətiyyəti özünü Vətən müharibəsi dövründə bir daha təsdiqləmişdir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatlarında fəal iştirak edən Qoşunların hərbçiləri Şuşa şəhərinin, Cəbrayıl, Füzuli, Xocavənd rayonlarının işğaldan azad olunmasında mərdlik, igidlik və qəhrəmanlıqlar göstərmiş, yüksək dövlət təltiflərinə layiq görülmüşlər. Qanunla müəyyən edilmiş vəzifələrin icrasında fərqlənən bir qrup hərbi qulluqçunun Möhtərəm Prezidentin sərəncamları ilə bu peşə bayramı ərəfəsində də mükafatlandırılması Zati-alilərinin qoşunların şəxsi heyətinin xidmətlərinə verdiyi ali dəyərin və etimadının əyani ifadəsidir.

Daxili Qoşunların yaranmasının 29-cu ildönümü münasibətilə sizi, həmçinin hörmətli veteranlarımızı, şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edir, hamınıza möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə uğurlar arzulayıram!

**Vilayət Eyvazov,**
Azərbaycan Respublikasının
daxili işlər naziri
general-polkovnik
11 mart 2021-ci il.

## DAXİLİ QOŞUNLAR GÜNÜ MÜNASİBƏTİLƏ DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANININ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ TƏBRİKİ

**Cənab generallar, zabitlər, gizirlər, çavuşlar və əsgərlər!**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Gününün 29-cu ildönümünü qeyd edirik. Qoşunların hər bir hərbi qulluqçusunun taleyində əlamətdar bayram olan Daxili Qoşunlar günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət, dövlətimizin suverenliyi və ictimai asayişin təmin edilməsi kimi gərəkli vəzifələrin yerinə yetirilməsində uğurlar arzulayıram.

Daxili Qoşunların şəxsi heyəti hərbi andına sadiq qalaraq qarşısında duran xidməti-döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməklə yanaşı, 1992-1994-cü illərdə, habelə 2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixlərini əhatə edən 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında fəal iştirak etmiş, misilsiz şücaət və qəhrəmanlıqlarla zəngin şərəfli döyüş yolu keçmişdir.

Müstəqillik illərində ölkə həyatının hər bir sahəsində olduğu kimi, ordu quruculuğunda yaranmış canlanma Daxili Qoşunlardan da yan keçməmiş, qoşunlar xalqımızın Ümummilli Lideri



Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində inkişaf edərək döyüş hazırlığının artırılması, hərbi intizamın yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi üzrə nəzərəçarpacaq irəliləyişlər əldə etmişdir. Mərhələlərlə və ardıcıl həyata keçirilən hərtərəfli quruculuq işləri nəticəsində Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməyə qadir olan, qanunla müəyyən edilmiş hərbi birləşmə kimi dövlətimizin etibarlı dayaqlarından birinə çevrilmişdir. Ağır sınaqlardan üzüağ çıxan, ildən-ilə mətinləşən, formalaşan Daxili Qoşunlar dövlətimizə, dövlətçiliyimizə qarşı yönəlmiş qüvvələrə barışmaz mübarizə aparmış, ictimai sabitliyi, vətəndaşların əmin-amanlığını layiqincə təmin etmişdir.

**Əziz silahdaşlarım!**

İnanıram ki, Daxili Qoşunlar bundan sonra da xalqımızın, dövlətimizin və çiçəklənən Azərbaycanımızın mənafeyi naminə bütün vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.

Bir daha bu əlamətdar gün münasibətilə Daxili Qoşunların bütün şəxsi heyətini səmimi qəlbdən təbrik edir, xidmətinizdə uğurlar, şəxsi həyatınızda ailə səadəti və xoşbəxtlik arzulayıram.

**Şahin Məmmədov**
Daxili işlər nazirinin müavini-
daxili qoşunların komandanı
general-leytenant
9 mart 2021-ci il.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARI - 29 İL



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Daxili Qoşunlar Gününün 29-cu ildönümünü qeyd edir. Bu münasibətlə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış "Əbədi məşəl" önünə əklil qoyulub, Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının abidəsi ziyarət olunub.

Ulu Öndər Heydər Əliyev tərəfindən 1995-ci il martın 9-da imzalanmış Fərmana uyğun olaraq, 12 mart tarixi Daxili Qoşunlar Günü elan edilib. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüş əməliyyatlarına ilk dəfə olaraq 1992-ci il mart ayının 12-də başlamışdır.

Artıq 29 ildir ki, Daxili Qoşunların hərbi qulluqçuları hər zaman öz andına sadiq qalaraq respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, bütövlükdə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında professionallığı və qətiyyətliliyi ilə fərqlənmişlər.

Daxili Qoşunların hərbi qulluqçuları istər 1992-1994-cü illərdə baş vermiş Birinci Qarabağ, istərsə də 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında fəal iştirak etmiş, gənc nəsillərə örnək olacaq əsl qəhrəmanlıq nümunələri göstərmişlər.

Müstəqillik illərində ölkə həyatının hər bir sahəsində olduğu kimi, ordu quruculuğunda yaranmış canlanma Daxili Qoşunlardan da yan keçməmiş, qoşunlar Ümummilli Lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində inkişaf edərək döyüş hazırlığının artırılması, hərbi intizamın yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi üzrə nəzərəçarpacaq irəliləyişlər əldə edib. Mərhələlərlə və ardıcıl həyata keçirilən hərtərəfli quruculuq işləri nəticəsində Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməyə qadir olan, qanunla müəyyən edilmiş hərbi birləşmə kimi dövlətimizin etibarlı dayaqlarından birinə çevrilib. Ağır sınaqlardan üzüağ çıxan, ildən-ilə mətinləşən, formalaşan Daxili Qoşunlar dövlətimizə, dövlətçiliyimizə qarşı yönəlmiş qüvvələrə barışmaz mübarizə aparıb, ictimai sabitliyi, vətəndaşların əmin-amanlığını layiqincə təmin edib.

Milli mənafelərin keşiyində həmişə ayıq-sayıq dayanan qoşunlar qanunvericiliklə müəyyən edilmiş vəzifələrini bu gün də uğurla yerinə yetirərək, qarşıya çıxan qəfil tapşırıqların icrasında yüksək operativlik nümayiş etdirir. Paytaxtda və bölgələrdə xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi, hərbi vəziyyət rejimi ilə əlaqədar döyüş xidmətinin aparılması və ictimai asayişin qorunması vəzifələri tam həcmdə yerinə yetirilir. İşğaldan azad olunmuş ərazilərdə Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən polis orqanlarının əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması təmin olunur.





Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun, həmçinin, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun Daxili Qoşunlar Gününün 29-cu ildönümü münasibətilə şəxsi heyətə ünvanladıqları təbriklərdə vurğulandığı kimi, Daxili Qoşunlar bundan sonra da xalqımızın, dövlətimizin və çiçəklənən Azərbaycanımızın mənafeyi naminə bütün vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.

**Mətbuat xidməti**

## DAXİLİ İŞLƏR NAZİRİ: "DAXİLİ QOŞUNLAR YÜKSƏK PEŞƏKARLIĞA, DÖYÜŞ VƏ FİZİKİ HAZIRLIĞA MALİK MOBİL QURUMA ÇEVRİLİB"

**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə martın 12-də Daxili Qoşunların yaranmasının 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.**

Giriş sözü ilə çıxış edən nazir Vilayət Eyvazov Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Zati-alilərinin səmimi təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdırıb. O, çıxışında təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini, ali diqqət və qayğı, eyni zamanda ciddi nəzarət, tələbkarlıq sayəsində Daxili Qoşunların yüksək peşəkarlığa, döyüş və fiziki hazırlığa malik mobil bir quruma çevrildiyini məmnunluqla vurğulayıb.

Sonra nazir müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov məruzə ilə çıxış edib.

General-polkovnik Vilayət Eyvazov çıxışında dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsində Daxili Qoşunların hərbi qulluqçularının da mərdlik, qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, düşmənlə ağır döyüşlərdə qoşunların 66 hərbçisinin şəhid olduğunu, 346 nəfərin isə yaralandığını qeyd edib. Diqqətə çatdırılıb ki, cənab Prezident tərəfindən qoşunların Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirən 1377 hərbçisi yüksək dövlət təltiflərinə, o cümlədən 4 nəfəri Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Nazir xidmətdə fərqlənən hərbi qulluqçuların peşə bayramı ərəfəsində də dövlət mükafatlarına layiq görülməsinin möhtərəm Prezidentin qoşunların şəxsi heyətinin əməyinə verdiyi ali dəyərin və yüksək etimadın əyani ifadəsi olduğunu diqqətə çatdırıb.

Eyni zamanda, daxili işlər naziri Vilayət Eyvazov Daxili Qoşunların qarşıda duran başlıca vəzifələrini qeyd edərək tapşırıq və tövsiyələrini verib. O, qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev iştirak edib.

**Sonda tədbirin iştirakçıları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul ediblər.**

**DİN-in Mətbuat xidməti**

3_Layout 1 15.03.2021 14:05 Page 1



# 12 MART - ŞƏRƏFLİ TARİXİMİZİN QÜRUR SƏHİFƏSİ

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları döyüş yoluna başladığı ərəfədə Dağlıq Qarabağ və ətraf rayonlarda erməni işğalçıları ilə döyüşlər gedirdi. Xocalıda dinc əhaliyə qarşı soyqırım törədilmişdi. Ölkədaxili ictimai-siyasi vəziyyət də gərginləşmişdi.***



1992-ci il martın 12-də Daxili Qoşunların Baş İdarəsinin, Bakı və Sumqayıt şəhərlərində yerləşən hərbi hissələrinin şəxsi heyətindən ibarət birləşmiş hərbi dəstə Ağdam rayonu ərazisinə gətirilmişdir.

Bu hərbi dəstənin ilk dayanacağı Şelli kəndi olmuş, sonra Qalayçılar və Papravənd kəndlərinin müdafiəsinə göndərilərək, bu istiqamətdə döyüş mövqelərini öz nəzarətinə götürmüşdür.

Həmin gün qoşunların şəxsi heyətinin dayandığı mövqelər düşmən tərəfindən müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulmuşdur. Hərbi qulluqçularımız bu ilk döyüş sınağından alnıaçıq çıxaraq, qətiyyət və cəsarət göstərmiş, düşməni cavab atəşi ilə susdurmuşlar.

Döyüş bölgəsində yerləşdirilən Daxili Qoşunların birləşmiş hərbi dəstəsi sonradan burada yeni hərbi hissələrin formalaşmasına zəmin yaradıb.

1992-1994-cü illərdə Daxili Qoşunların hərbi hissələri Ağdam, Ağdərə, Qubadlı, Laçın, Kəlbəcər, Zəngilan, Füzuli və Cəbrayıl rayonları ərazisində respublikamızın ərazi bütövlüyü uğrunda döyüş yolu keçmişlər.

Göstərilən istiqamətlərdə döyüş əməliyyatları mürəkkəb relyefə malik, habelə strateji yüksəkliklərin, mühüm kommunikasiya qovşaqlarının, hətta dövlət sərhəd zolağının yerləşdiyi əraziləri, eləcə də kiçik və böyük yaşayış məntəqələrini əhatə etməklə, müxtəlif hava şəraitində, bəzən döyüş təchizatının fasiləsiz təmin edilməsinin müəyyən çətinlikləri vəziyyətində aparılmışdır.

Daxili Qoşunların şəxsi heyətinin döyüş təcrübəsi qanla, ölümitimlə yazılmışdır. O vaxt hərbi qulluqçularımızın böyük əksəriyyəti ilk dəfə olaraq müharibə sınaqları ilə üz-üzə gəlmişlər. Buna baxmayaraq, hərbi qulluqçularımız ağır sınaqlar qarşısında yüksək iradə və qətiyyət, şücaət nümunələri göstərmişlər.

1992-ci ilin mart-dekabr, habelə 1993-cü ilin yanvar-oktyabr aylarında Daxili Qoşunların ön cəbhədəki şəxsi heyətinin iştirakı ilə Ağdərə, Ağdam, Kəlbəcər, Laçın, Füzuli və Zəngilan rayonlarında düşmənin xeyli canlı qüvvəsi, texnika, artilleriya qurğuları, istehkam vasitələrinin məhv edilməsi ilə nəticələnən uğurlu hücum və müdafiə xarakterli döyüşlər olmuşdur. Döyüş salnaməmizin bu ziddiyyətli və keşməkeşli mərhələsi işğal altında olan ərazilərin bir hissəsinin azad edilməsi və torpaqlarımızın bir qisminin yenidən işğala məruz qalması acı gerçəkliyi ilə də yadda qalmışdır.

Həmin dövrün sarsıntılı müharibə itkiləri milli birlik və möhkəm dövlətçilik kimi taleyüklü faktorların təmin olunmasındakı boşluqların ölkənin ərazi bütövlüyünün qorunmasına necə ciddi zərbə vurduğunu göstərdi.

1993-cü il noyabrın 2-də Ümummilli Lider cənab Heydər Əliyevin radio və televiziya ilə xalqa tarixi müraciəti bütünlüklə Silahlı Qüvvələrin yenidən qurulması və formalaşması yolunda gərəkli bir proqrama çevrildi. Ulu Öndərin tarixi çağırışı Daxili Qoşunlarda böyük canlanma və ruh yüksəkliyi yaratdı. Daxili Qoşunların şəxsi heyətinin məhz bu zaman, 1993-cü ilin noyabr-dekabr aylarında Füzuli rayonunda düşmənin hücumlarının qarşısını alması, 1994-cü ilin yanvar ayında isə ordu hissələri ilə birgə başlanan əks hücumu ağır döyüşlərdən sonra Horadiz sərhədyanı qəsəbəsinin (hazırda Horadiz şəhəri) və ətraf kəndlərin, habelə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin işğaldan azad olunması ilə nəticələnmişdir. Azərbaycanın xeyrinə əsaslı dönüş kimi qiymətləndirilən bu döyüşlərdə Daxili Qoşunların fəaliyyəti əvəzsiz olmuşdur.

**Ümumiyyətlə, ərazi bütövlüyümüz uğrunda döyüş əməliyyatları aparılan 1992-1994-cü illərdə Daxili Qoşunların şəxsi heyətindən 680 nəfər həlak olmuş, 5 nəfər itkin düşmüş, 1177 nəfər hərbi qulluqçu isə yaralanmışdır.**

# DAXİLİ QOŞUNLAR VƏTƏN MÜHARİBƏSİNDƏ



2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixləri Azərbaycan Respublikasının dövlətçilik və hərb tarixində şərəfli və qürurverici səhifə olaraq layiqli yer tutacaqdır. Qeyd olunan 44 gün ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin vahid komandanlığı altında Silahlı Qüvvələrimiz erməni təcavüzkarlarına qarşı uğurla döyüşərək, uzun illər düşmən tapdağında qalan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını, Xocavənd, Laçın rayonlarının bir hissəsini, Ağdərə şəhəri ətrafındakı Talış, Suqovuşan kəndlərini, Xocalı rayonunun bir sıra kəndlərini, Şuşa şəhərini və strateji əhəmiyyətli bəzi yüksəklikləri işğaldan azad etdi. Döyüş meydanında və diplomatik müstəvidə məğlub olan Ermənistan müharibəni dayandırmaq üçün Azərbaycanın şərtlərini qəbul etmək məcburiyyətində qaldı. Beləliklə, Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən noyabrın 9-da birgə bəyanat imzalandı. Həmin bəyanata uyğun olaraq, 10 noyabr 2020-ci il tarixindən etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan olundu. 9 bənddən ibarət bəyanata əsasən, Ermənistanın üzərinə respublikamızın Kəlbəcər, Ağdam və Laçın rayonlarından öz hərbi qüvvələrini çıxarmaq, bu əraziləri boşaltmaq öhdəliyi qoyuldu. Artıq bu rayonlarımızda da üçrəngli bayrağımız qaldırılıb.





Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları istər 1992-1994-cü illərdə baş vermiş Birinci Qarabağ, istərsə də 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində erməni işğalçılarına qarşı əzmlə döyüşmüş, gənc nəsillərə örnək olacaq əsl qəhrəmanlıq nümunələri göstərmişlər.

Bundan əlavə, müharibə zamanı ölkəmizdə elan edilən hərbi vəziyyətlə bağlı Daxili Qoşunların hərbi qulluqçuları və polis əməkdaşlarına paytaxtımız və bölgələrdə komendant saatı rejiminin təmin olunması üzrə tapşırıqların yerinə yetirilməsi də həvalə olunmuşdur. Hərbi qulluqçularımız polis əməkdaşları ilə birgə bu mühüm vəzifəni də yüksək məsuliyyət hissi və ayıq-sayıqlıqla icra etmişlər.

**Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olmuş, 346 nəfər hərbi qulluqçu isə yaralanmışdır.**

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı almış Vətən müharibəsi iştirakçıları arasında məhz Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusunun - polkovnik Yusibov Zəfər Qəzənfər oğlu, polkovnik-leytenant İmrəliyev Füzuli Şiraslan oğlu, mayor Qaflanov Şixamir Oruc oğlu (ölümündən sonra) və kapitan Bədəlov Nicad Mehman oğlunun da adları var.



Bundan əlavə, ölkə başçısının 15.12.2020-ci il tarixli, 18.12.2020-ci il tarixli, 24.12.2020-ci il tarixli, 25.12.2020-ci il tarixli, 29.12. 2020-ci il tarixli müvafiq sərəncamları ilə Daxili Qoşunların şəxsi heyətindən 6 nəfər "Zəfər", 11 nəfər "Qarabağ", 11 nəfər 3-cü dərəcəli "Rəşadət" ordenləri, 65 nəfər "Vətən uğrunda", 70 nəfər "Cəsur döyüşçü", 74 nəfər "Döyüşdə fərqlənməyə görə", 121 nəfər "Cəbrayılın azad olunmasına görə", 606 nəfər "Füzulinin azad olunmasına görə", 314 nəfər "Şuşanın azad olunmasına görə", 91 nəfər "Kəlbəcərin azad olunmasına görə", 4 nəfər "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişlər.

Həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 03.11.2020-ci il tarixli, 24.12.2020-ci il tarixli və 28.12.2020-ci il tarixli müvafiq əmrləri ilə qoşunların şəxsi heyətindən 134 nəfər "Şücaətə görə", 125 nəfər hərbi qulluqçu isə 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Noyabrın 10-da ölkə başçısı düşmən üzərində qazanılan tarixi Qələbə münasibəti ilə xalqa müraciətində demişdir: "Mən noyabrın 8-də Şuşanın azad edilməsi ilə əlaqədar xalqıma müjdə verərkən bildirmişdim ki, şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb".

Qədirbilən xalqımız ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında, məcburi köçkün soydaşlarımızın didərginlik həyatının sona çatmasında, bizim tərəfimizdə olan haqq-ədalətin bərqərar edilməsində Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin tarixi xidmətini heç vaxt unutmayacaq. Qalib Silahlı Qüvvələrimizin bu müharibədə keçdiyi zəfər yolu müasir hərb salnaməmizin qəhrəmanlıq nümunəsi kimi bugünkü və gələcək nəsillər tərəfindən daim yüksək qiymətləndiriləcək.

# MİLLİ QƏHRƏMANLARIMIZ



İstefada olan polis polkovniki Məmmədov Sahil Ələmdar oğlu



Kapitan Arazov Ənvər Talış oğlu



Baş leytenant Yəhyayev Elşad Məmmədhənifə oğlu



Baş leytenant Quliyev Mətləb Kamran oğlu



Baş leytenant Nəcəfov Fəxrəddin Vəlyəddin oğlu



Baş leytenant Abdullayev Rövşən Abdulhüseyn oğlu



Çavuş Makeyev İqor Vladimiroviç



Əsgər Məhərrəmov Səxavət Ələmdar oğlu



Əsgər Muradov Ruslan Həmid oğlu

"Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş fədai oğullar arasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 9 nəfər hərbi qulluqçusu da var. Onlardan 8 nəfəri bu fəxri adla ölümündən sonra təltif edilib. Kapitan Ənvər Arazov, baş leytenant Elşad Yəhyayev, baş leytenant Mətləb Quliyev, baş leytenant Fəxrəddin Nəcəfov, baş leytenant Rövşən Abdullayev, çavuş İqor Makeyev, əsgər Səxavət Məhərrəmov və əsgər Ruslan Muradov ərazi bütövlüyümüz uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə şəhidlik zirvəsinə ucalmışlar. Müharibə sınaqlarından keçərək sağ qalmış, ağır yaralanaraq əlil olmuş Sahil Məmmədov isə bu gün istefada olan polis polkovnikidir.

Bu qəhrəman hərbi qulluqçularımızdan 6 nəfəri zabit, 1 nəfəri çavuş, 2 nəfəri isə əsgər hərbi rütbəsində şərəfli döyüş yolu keçmişlər. Onlardan 6 nəfərinin (kapitan Ənvər Arazov, baş leytenant Mətləb Quliyev, baş leytenant Fəxrəddin Nəcəfov, çavuş İqor Makeyev, əsgər Səxavət Məhərrəmov və əsgər Ruslan Muradov) döyüş yolunun son məntəqəsi Ağdərə olmuşdur. Baş leytenant E.Yəhyayev Ağdamda, baş leytenant R.Abdullayev isə Zəngilanda əbədiyyətə qovuşmuşlar. S.Məmmədov Zəngilan uğrunda döyüşlərdən birində ağır yaralanıb.

Qəhrəmanlarımızın hər biri haqqında qürurla demək olar ki, müharibənin od-alovu içində, dəhşətli gerçəklikləri ilə üz-üzə qaldıqda Vətən sevgiləri, hərbi anda sədaqətləri onların mənəvi güc mənbəyi olub.

Milli qəhrəmanlarımızın şərəfli döyüş yolu Vətən naminə fədakarlıq örnəyi olmaqla onların davamçıları üçün hünər məktəbinə və ruhlandırıcı amilə çevrildi.

# VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANLARIMIZ



Mayor Qaflanov Şixamir Oruc oğlu



polkovnik Yusibov Zəfər Qəzənfər oğlu



polkovnik-leytenant İmrəliyev Füzuli Şiraslan oğlu



kapitan Bədəlov Nicad Mehman oğlu

4_Layout 1 15.03.2021 14:09 Page 1









### GÜC, MƏHARƏT, ÇEVİKLİK VƏ NİZAMIN VƏHDƏTİ...

# DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNİN TƏLİMLƏRİ...

Xidməti-döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə şəxsi heyətin mükəmməl hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün döyüş təlimi prosesinin keyfiyyətli təşkili, onun məzmun və üsullarının davamlı olaraq təkmilləşdirilməsi, yeni texnika, silahlar, xüsusi vasitələrin xüsusiyyətlərinin praktiki mənimsənilməsi, fəaliyyət taktikası üzrə məşqlərin real şəraitə uyğun keçirilməsi peşəkarlıq vərdişlərinin formalaşmasında əsaslı zəmin yaradır. Hər bir hərbi hissə və bölmənin, hərbi qulluqçunun gücü onun döyüş qabiliyyətinə bağlıdır. Bu baxımdan Daxili Qoşunlarda döyüş təlimi prosesi komandanlığın xüsusi diqqət mərkəzindədir və ildən-ilə göstərilən sahədə yeniliklər tətbiq olunur.

Hazırda Daxili Qoşunların sərəncamında müasir standartlara cavab verən təlim mərkəzləri və şəhərcikləri, idman zalları, atıcılıq tirləri, tədris vasitələri və ləvazimatları mövcuddur. Hərbi hissələrdə məşğələ otaqları müasir tərtibata malikdir və lazımı texniki avadanlıqlarla təchiz olunub.

Daxili Qoşunlarda döyüş təliminin öz xüsusiyyətləri var. Bu prosesdə Daxili Qoşunların vəzifələrindən irəli gələn praktiki fəaliyyətlərə əsas diqqət yönəldilir. Daxili Qoşunların taktikasının çoxşaxəli elementləri təlimlərdə müvafiq nizamnamə, direktiv və digər normativ sənədlərin tələbləri əsasında məşq etdirilərək, ötən illərdə qazanılan təcrübə də nəzərə alınır.

Bütövlükdə, döyüş təlimlərində şəxsi heyətin fiziki hazırlığının möhkəmləndirilməsinə, silahlardan sərrast atəş açmaq bacarıqlarının inkişaf etdirilməsinə, zirehli texnika, avtomobillərin idarə olunması məharətinin artırılmasına, çeviklik, dözümlülük, ahəngdarlıq, nizamlılıq vərdişlərinin aşılanmasına nail olunur.

Daxili Qoşunların şəxsi heyəti digər qoşun növlərinin hərbi qulluqçuları ilə birgə döyüş təlimlərində də peşəkarlıq cəhətdən fərqlənmişdi. Bütün bunlar onu göstərir ki, Daxili Qoşunların şəxsi heyəti qarşısına qoyulan istənilən döyüş tapşırığını yerinə yetirməyə daim hazır və qadirdir.







# DÖVLƏTÇİLİYƏ SƏDAQƏT, DÖVLƏT QANUNLARINA RİAYƏT, PEŞƏKAR XİDMƏT!

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ötən 29 ildə öz statusu ilə müəyyən edilmiş vəzifələrdən irəli gələrək, paytaxt Bakıda və bölgələrimizdə müxtəlif təyinatlı xüsusi əməliyyatlarda iştirak etmişdir. Hərbi qulluqçularımız daxili işlər naziri və daxili qoşunların komandanı tərəfindən qarşıya qoyulmuş xüsusi tapşırıqların yerinə yetirilməsi zamanı dövlətçiliyə sədaqət, qətiyyət və sayıqlıq nümunələri göstərmişlər.





Yaşayış məntəqələrində kütləvi iğtişaşların qarşısının alınması, ayrı-ayrı ərazilərdə silahlı cinayətkarların axtarılması və zərərsizləşdirilməsi, cəzaçəkmə müəssisələrində kütləvi iğtişaşlar nəticəsində pozulmuş daxili rejim qaydalarının bərpa olunması, irihəcmli qəzaların və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması zamanı ictimai asayişin mühafizəsi, vətəndaşların xilas edilməsi, dövlət və əhaliyə məxsus əmlakın qəza və təbii fəlakət zonalarından təxliyyəsi üzrə xüsusi əməliyyatların uğurla keçirilməsi məhz şəxsi heyətin peşəkarlığı və yüksək mənəvi-psixoloji hazırlığının göstəricisidir.

Bir çox xüsusi əməliyyatda Daxili Qoşunların hərbi hissələri polislə birgə və ya koordinasiya olunmuş şəkildə iştirak etmişdir.



Şəxsi heyətin silah, texnika, xüsusi vasitələrdən qanunvericiliyin tələblərinə uyğun və effektiv şəkildə istifadə etməsi təmin olunmuşdur.

Daxili Qoşunlar ictimai təhlükəsizliyin təmin olunmasında zəngin xidmət təcrübəsi toplamışdır. Bu amil xüsusi əməliyyatların planlaşdırılması, xüsusiyyətləri və keçirilməsi taktikasında da öz əksini tapmışdır.

Bu gün dünya ölkələrini çətin sınaqlarla üz-üzə qoyan koronavirus (COVID-19) pandemiyasının ölkədə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması və xüsusi karantin rejiminin tələblərindən irəli gələn vəzifələrin icrasının təmin olunmasına polis əməkdaşları ilə birgə Daxili Qoşunların şəxsi heyəti də cəlb edilmişdir. Belə bir mühüm vəzifənin onlara həvalə olunması müvafiq qanunvericiliyin tələblərindən irəli gəlir. Onu da qeyd etmək vacibdir ki, "Daxili Qoşunların statusu haqqında" Qanunda Daxili Qoşunların hərbi qulluqçularının fövqəladə hallarda fəaliyyəti nəzərdə tutulub. Koronavirus pandemiyası da fövqəladə hal kimi xarakterizə olunur.

2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixlərində baş vermiş Vətən müharibəsi ilə əlaqədar ölkəmizin ərazisində elan edilmiş hərbi vəziyyət rejiminin təmin olunması üzrə tapşırıqların yerinə yetirilməsində Daxili Qoşunların da fəaliyyəti xüsusi vurğulanmalıdır.

Hərbi vəziyyət dövründə paytaxt və bölgələrdə komendant saatının tətbiqi ilə bağlı qurulmuş polis postlarında Daxili Qoşunların hərbi qulluqçuları da xidmət aparmışlar.

Hərbi qulluqçularımız polis əməkdaşları ilə birgə hərbi vəziyyət rejiminə nəzarət edib, hərəkət edən avtomobilləri və vətəndaşları saxlayaraq, müvafiq icazə sənədlərinin olub-olmamasını yoxlayıblar. Bundan başqa, avtomobillərin yük yerinə də baxış keçirilib.

Xidmətə cəlb olunan şəxsi heyət qarşıya qoyulan tapşırıqların məsuliyyətini düzgün dərk etməklə, hərbi vəziyyət rejimi tədbirlərinə aid təlimatları dəqiq yerinə yetirib, vətəndaşlara münasibətdə etik davranış qaydalarına ciddi riayət edib, belə çətin vəziyyətdə nümunəvi xidmətilə qoşunlar haqqında müsbət rəy yaradıb.

Daxili Qoşunların şəxsi heyətinin xalqımızın əmin-amanlığı keşiyində mübariz xidməti dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir və ölkə ictimaiyyətinin dərin rəğbətini qazanır.







*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonu: (012) 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**